**Azərbaycan Respublikası**
**Auditorlar Palatasının**
**sədri**

**Vahid Novruzova**

**Hörmətli Vahid müəllim,**

Azərbaycan Respublikası Auditorlar Palatasının yaradılmasının 30 illik yubileyi münasibətilə Sizi və rəhbərlik etdiyiniz kollektivi səmimi qəlbdən təbrik edir, ölkəmizdə milli audit xidmətinin inkişafı naminə fəaliyyətinizdə yeni-yeni uğurlar arzulayıram.

Böyük qürur və fəxarət hissi ilə bildirirəm ki, bu gün ölkəmiz öz müstəqillik tarixinin ən şərəfli dövrünü yaşayır. Ümummilli Lider Heydər Əliyevin müəyyən etdiyi mütərəqqi siyasi kursun layiqli davamçısı möhtərəm Prezidentimiz cənab İlham Əliyevin müdrik rəhbərliyi ilə ardıcıl olaraq həyata keçirilən sosial-iqtisadi islahatlar, hüquqi-demokratik dövlət quruculuğu istiqamətində atılan uzaqgörən və qətiyyətli addımlar sayəsində müstəqil Azərbaycan dünyanın bir çox dövlətlərinin uzun müddət ərzində əldə edə bilmədiyi iqtisadi inkişafa nail olmuş, ölkəmiz keyfiyyətcə yeni, modernləşmə mərhələsinə qədəm qoymuşdur. Azərbaycanda həyata keçirilən çoxşaxəli islahatlar həm də müasir dünya standartlarına uyğun maliyyə-nəzarət sisteminin formalaşdırılmasında əsaslı rol oynamışdır.

Sevindirici haldır ki, Ümummilli Lider Heydər Əliyevin imzası ilə beynəlxalq prinsiplər əsasında müstəqil maliyyə nəzarəti orqanı kimi yaradılan və fəaliyyətə başlayan Auditorlar Palatası ötən illər ərzində respublikamızda müasir dövrün tələblərinə uyğun nüfuzlu təsisata çevrilmiş, onun iqtisadi münasibətlərin inkişafındakı rolu əhəmiyyətli dərəcədə artmışdır. Azərbaycan Prezidenti cənab İlham Əliyevin diqqət və qayğısının nəticəsidir ki, bu gün audit sistemi və auditor xidmətinin normativ hüquqi bazası əsaslı şəkildə gücləndirilmiş, auditorların peşəkarlıq səviyyəsi artırılmış, beynəlxalq təcrübənin iş prosesində tətbiqi ilə milli auditin qarşısında dayanan vəzifələr uğurla icra olunur. Auditorlar Palatasının müəssisələrin maliyyə və mühasibat uçotunun dəqiq və dürüst aparılması, şəffaflığın təmin edilməsi, maliyyə resurslarından səmərəli istifadə, korrupsiyaya qarşı mübarizə, bir sözlə dövlətimizin iqtisadi mənafeyinin qorunması, iqtisadiyyatımızın davamlı inkişafı baxımından prinsipial mövqeyə əsaslanan fəaliyyəti yüksək qiymətləndirilir.

İş prosesində mütərəqqi yeniliklərin tətbiqi, nüfuzlu beynəlxalq audit və mühasibatlıq qurumlarına tamhüquqlu üzvlük, digər dövlətlərin zəngin təcrübəyə malik müvafiq qurumları ilə əməkdaşlıq haqqında sənədlərin imzalanması, təşkilatçılığınızla fəaliyyət sahənizə dair bir sıra beynəlxaq əhəmiyyətli tədbirlərin Azərbaycanda keçirilməsi rəhbərlik etdiyiniz Auditorlar Palatasının artan nüfuzundan xəbər verir. Bununla bərabər, MDB məkanında ilk olaraq respublikamızda Beynəlxalq Daxili Auditorlar İnstitutunun regional bölməsinin təsis olunması, sonradan müstəqil instituta çevrilən Azərbaycan Daxili Auditorlar İnstitutunun Auditorlar Palatasının dəstəyi ilə Avropa və Asiya konfederasiyalarının üzvlüyünə qəbul olunması yaddaqalan hadisələrdəndir. Çalışdığınız fəaliyyət sahəsində təşəbbüskarlığınız, idarəetmə bacarığınız, işgüzarlığınız, yeni dövrün çağırışlarına və hədəflərinə cavab vermək əzminiz qeyd olunmalıdır. Bütün bunlar Sizin Ulu Öndər Heydər Əliyev ideyalarına, möhtərəm Prezidentimiz cənab İlham Əliyevin dəst-xəttinə, Azərbaycanın dövlətçilik ənənələrinə sadiqliyinizdən, eyni zamanda çalışdığınız məsul vəzifədə nümayiş etdirdiyiniz yüksək peşəkarlıqdan xəbər verir.

Əlamətdar yubiley münasibətilə Fövqəladə Hallar Nazirliyinin şəxsi heyəti adından bir daha Sizə və rəhbərlik etdiyiniz kollektivə ən xoş arzularımı çatdırır, bundan sonra da qarşıda duran vəzifələrin öhdəsindən layiqincə gələcəyinizə əminliyimi ifadə edirəm.

**Hörmətlə,**

**Azərbaycan Respublikasının**
**fövqəladə hallar naziri** **Kəmaləddin Heydərov**